*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 26 avqust 2015-ci il | № 65 (1981) | Qiyməti 25 qəpik


# Əsas məqsəd xalqın və dövlətin etimadını doğrultmaqdır

**Ali Baş Komandan İlham ƏLİYEV:**

*Orduya diqqət Azərbaycan dövlətinin prioritetidir. Mən çox şadam ki, cəmiyyət də bu təşəbbüsləri alqışlayır. Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərəfləndirən amildir. Biz bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq, bu diqqəti göstərəcəyik.*



***Ötən ayın 13-də Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışı zamanı ənənəvi olaraq ordu quruculuğuna geniş diqqət ayırdı. Dövlət başçısı yenə vurğuladı ki, ordu quruculuğu daim bizim üçün prioritetdir. "Xəzər sahilində ən böyük hərbi obyektlərdən biri də bu il Azərbaycanda istifadəyə verilib. Hərbi dəniz qüvvələri bazası yaradılmışdır. Bütün digər lazımi tədbirlər görülür, hərbi şəhərciklər, bazalar tikilir, təmir olunur, əsgərlər, zabitlər üçün gözəl şərait yaradılır. Təbii ki, silah-sursat, maddi-texniki təminat diqqət mərkəzindədir. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu, dediyim kimi, dünya miqyasında güclü ordular sırasındadır".***

Müasir dövrdə Azərbaycanın ordu quruculuğunda qazandığı uğurlar nəinki ölkəmizdə, həmçinin beynəlxalq təşkilatlarda da qeyd edilir və tanınmış hərbi ekspertlər, doğrudan da, qısa zaman ərzində dövlətimizin hərbi qüdrətinin yüksəldiyini bildirirlər. Bu danılmaz həqiqətdir ki, son illər ordu quruculuğunun inkişaf etdirilməsi, hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, həmçinin, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məsələləri dövlətimizin siyasi kursunda ən başlıca istiqamətlərdən biridir. Elə bir dövlət tədbiri olmaz ki, orada Prezident ordu quruculuğuna diqqət yetirməsin və hərbi məsələlərə geniş yer ayırmasın. Dəfələrlə dövlətimizin başçısı bəyan edir ki, ordumuzun ən müasir tələblər səviyyəsində inkişafına nail olmaq onun başlıca məqsədlərindən biridir. Şübhəsiz ki, hazırkı dövrdə, yeni torpaqlarımızın illərdən bəri işğala məruz qaldığı və nüfuzlu dövlətlərin, mötəbər təşkilatların ikili standartlara rəvac verdiyi bir zamanda Azərbaycan dövlətinin hərbi məsələlərə geniş yer verməsi təbiidir. Azərbaycan üzləşdiyi münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan etməsinə baxmayaraq, qarşı tərəf, yəni işğalçı Ermənistan dövlətinin rəsmiləri hər cür vasitələrlə məsələnin obyektiv həllindən boyun qaçırırlar. Heç kimə sirr deyil ki, Ermənistanın faktiki siyasi-iqtisadi müstəqilliyi yoxdur və başqa bir dövlətin əlində oyuncaq vasitəyə çevrilib. Xalqımızın səbrinin artıq tükəndiyini bildirən dövlətimizin başçısı isə bəyan edir ki, "biz işğalda olan ərazilərimizi istənilən yolla azad etməyə və ölkənin beynəlxalq hüquqla təsbit edilən ərazi toxunulmazlığını təmin etməyə qadirik".

Ermənistandan tam fərqli olaraq Azərbaycan bölgədə hərbi gücünə görə lider dövlətdir və müasir silahlanmaya malikdir. Artıq bizim dövlət nəinki inkişaf etmiş ölkələrdən müasir silah və texnika alır, eyni zamanda bəzi hərbi sursatları özü istehsal edir. Bu fikri deməkdə məqsədim ondan ibarətdir ki, ölkəmiz iqtisadi potensialı hesabına özünün hərbi qüdrətini daha da gücləndirməyə qadirdir. Bu gün Silahlı Qüvvələrimizin müxtəlif bölgələrdə yerləşən hərbi hissə və birləşmələri yenidən qurulur, müasir hərbi şəhərciklər əsgər və zabitlərin istifadəsinə verilir. Bütün bu məsələlər Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. Hər dəfə cəbhə bölgələrinə səfər edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov tikinti-quruculuq işləri ilə şəxsən maraqlanır və öz tapşırıqlarını verir. Nazir bir məsələni vurğulayır ki, ön xətdə xidmət edən şəxsi heyətin sosial şəraiti müasir tələblərə cavab verməlidir. Ordu rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğı isə döyüşçülərimizdə böyük ruh yüksəkliyi yaradır, hər kəsi fədakarlığa sövq edir.

Yeri gəlmişkən, orduda şəxsi heyətin döyüş ruhunun güclənməsini, xalqın öz ordusuna inam və ümidinin artmasını qeyd etmək istərdim. Hazırda hərbi hissələrdə aparılan geniş quruculuq işləri, bölgələrdə keçirilən iri-miqyaslı döyüş təlimləri cəmiyyətimizdə Azərbaycan Ordusunun nüfuzunu qat-qat artırıb. Doğma ordusuna güvəncli olan xalq inanır ki, torpaqlarımız son qarışına kimi işğaldan azad ediləcəkdir. İndi əvvəlki vaxtlarla müqayisədə hərbi hissələrdə andiçmə mərasimləri əsl el şənliyinə çevrilir, ata-analar öz övladlarını hərbi xidmətə böyük həvəslə yola salırlar. Artıq valideyn bilir ki, övladı ordu rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunur, onun xidməti üçün əlverişli şərait yaradılır. Ön xətdə xidmət edən övladının görüşünə gedən valideynlər burada yaradılan məişət şəraitindən razı qalırlar. Qəzetimizin ötən sayında bir əsgər atasının məktubu dərc edilib. Oğlunun hərbi xidmətdə olmasından qürur duyan valideyn səmimi ürək sözlərini oxucularımızla bölüşüb və hərbi hissədəki şəraitdən razılığını bildirib.

Vətənə övlad borcunu ödəmək üçün ordu sıralarına gələn gənclərimiz hərbi xidmətin imkanlarından yararlanaraq yurdumuzu qorumağa və işğalda olan torpaqlarımızı azad etməyə qadir olan əsl döyüşçü kimi formalaşırlar. Şübhəsiz, həm ailədə və cəmiyyətdə layiqli vətənpərvərlik tərbiyəsi, həm də təcrübəli komandirlərin qayğısı onların formalaşmasında az əhəmiyyət daşımır. Əslində hər bir komandir üçün tabeliyindəki əsgərin yetərincə savadlı, bacarıqlı, vətənpərvər olması başucalığıdır. Komandir heç vaxt zəif əsgərlə döyüşə atıla bilməz. Yalnız öz əsgərinin döyüş qabiliyyətinə, mənəvi-psixoloji hazırlığına güvənən zabit müharibədə zəfər qazanmağa qadir ola bilər. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev daim ordu mövzusunda danışında bildirir ki, ordunun yüksək döyüş qabiliyyəti onun komandir və əsgərlərinin döyüş ruhundan, vətənpərvərliyindən asılıdır. Məhz bu baxımdan hər bir döyüşçü - komandir və əsgər qarşısında dayanan taleyüklü vəzifənin məsuliyyətini dərindən başa düşməli, xalqın və dövlətin etimadını doğrultmaq üçün hər an fədakarlığa və qəhrəmanlığa imza atmağa hazır olmalıdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Cəbhənin Ağdam-Xocavənd istiqamətində düşmən fəallığının qarşısı qətiyyətlə alınıb

### *Düşmənin 5 nəfər hərbi qulluqçusu məhv edilib və 8 nəfəri yaralanıb*

***Avqustun 22-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs haqqında razılaşmanı növbəti dəfə xaincəsinə pozaraq Azərbaycan Silahlı Qüvvələrinin cəbhənin Ağdam və Xocavənd rayonları istiqamətində yerləşən mövqelərini qəflətən iriçaplı atıcı silahlardan, 60 və 82 millimetrlik minaatanlardan atəşə tutublar.***

Cəbhənin bu istiqamətində yaranmış əməliyyat şəraiti qiymətləndirilərək komandanlıq tərəfindən düşmənin müdafiəsinin ön xəttində və dərinliyində əvvəlcədən müəyyən edilmiş kvadratlara, o cümlədən mövqelərə, postlara, səngərlərə, bölük dayaq məntəqələrinə, kommunikasiya xətlərinə minaatanlar və toplardan yaylım atəşi ilə cavab zərbələri endirmək barədə qərar qəbul edilib.

Erməni tərəfi növbəti dəfə itkilərini xalqından gizlətməyə cəhd etməsinə baxmayaraq, əldə olunan məlumata əsasən, düşmənin 5 nəfər hərbi qulluqçusu məhv edilib və 8 nəfəri yaralanıb.

Qısamüddətli şiddətli atəşdən sonra düşmən tərəfinə meyitlərini çıxarması və ağır yaralılarına yardım göstərməsi məqsədilə komandanlıq atəşin müvəqqəti dayandırılması barədə qərar qəbul edib.

Düşmənin atəşi nəticəsində biz tərəfdən 3 hərbi qulluqçu yüngül qəlpə yarası alıb. Təxirəsalınmaz ilkin tibbi yardımdan sonra hərbi qulluqçulara daha yüksək ixtisaslı yardım göstərilməsi məqsədilə onlar hərbi tibb müəssisəsinə çatdırılıb. Həkimlərin sözlərinə görə, yüngül qəlpə yarası almış hərbi qulluqçuların vəziyyəti qənaətbəxşdir, onların həyatı üçün heç bir təhlükə yoxdur. Göstərilən tibbi yardımdan sonra hərbi qulluqçular hərbi hissəyə qaytarılıblar.

Şəxsi heyətin mənəvi-psixoloji reabilitasiyası üzrə təşkil olunan və həyata keçirilən iş nəticəsində hərbi qulluqçuların döyüş əzmi və qələbə ruhu yüksək səviyyədədir.

Müdafiə Nazirliyi bəyan edir ki, qoşunların təmas xəttində vəziyyətin növbəti dəfə gərginləşməsinə və işğalçıların sıralarında baş verəcək insan itkilərinə görə məsuliyyət bütövlükdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Müdafiə Nazirliyi əvvəlcədən xəbərdar edir ki, Ermənistanın hərbi rəhbərliyindəki əliqanlı yaramazları cilovlamaq məqsədilə düşmənin mövqelərinə endiriləcək zərbələr daha sarsıdıcı, təsirli və amansız olacaqdır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## "Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun işğaldan azad edəcək"

***Avqustun 24-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya departamentinin rəhbəri Maykl Tatham ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Əli Həsənov Böyük Britaniya Krallığından Azərbaycana mütəmadi olaraq nümayəndə heyətlərinin səfər etdiklərini bildirib. Biz bunu yüksək qiymətləndiririk. Bu görüşlərin hamısında Azərbaycanın əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə müzakirələr aparırıq. Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilib, 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib. Ancaq Azərbaycan beynəlxalq aləmdə ikili standartlarla üzləşir. BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq qurumların Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə qətnamə və qərarlarını Ermənistan hələ də yerinə yetirmir. Problemin həlli ilə ATƏT-in Minsk qrupu məşğuldur. Lakin o da indiyədək heç bir səmərəli iş görməyib.

Əli Həsənov bildirib ki, biz ədalətin bərpa olunmasını istəyirik. Biz regionda sülhün bərqərar olmasını, təcavüzkarın öz adı ilə çağırılmasını istəyirik. Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun işğaldan azad edəcək.

Baş nazirin müavini deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev müstəqil siyasət yürüdür. Azərbaycan öz müstəqil siyasətindən əl çəkməyəcək. Biz bu müstəqilliyi tökülən qanlar bahasına əldə etmişik.

Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya departamentinin rəhbəri Maykl Tatham görüşdə bildirib ki, Azərbaycan həssas regionda yerləşir. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan üçün nə qədər önəmli olduğunu dərk edirik. Bu məsələ bizi də narahat edir. Bizim mövqeyimiz aydındır: işğala son qoyulmalıdır, qaçqın və məcburi köçkünlər öz torpaqlarına qayıtmalıdırlar. Biz ATƏT-in Minsk qrupunun fəaliyyətinə çox böyük dəstək veririk. Bununla belə bizi də məyus edən odur ki, qrupun fəaliyyətində hələ ciddi irəliləyiş yoxdur.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Müdafiə naziri Türkiyə səfiri ilə görüşüb

## Yeni hərbi attaşe təqdim olunub

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab İsmayıl Alper Coşkun ilə görüşüb.***



Görüşdə Azərbaycan ilə Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Qartalı - 2015" taktiki təlimlərin keçirilməsinin vacibliyi, o cümlədən bu cür tədbirlərin davamlı olaraq icra edilməsi xüsusi qeyd olunub.

Bundan əlavə, görüşdə hər iki ölkənin Silahlı Qüvvələrinin inkişafı istiqamətində həyata keçirilən əməkdaşlığın perspektivləri, regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bölgə üçün vacibliyi və digər məsələlər müzakirə edilib.

Müdafiə naziri Azərbaycan və Türkiyə Silahlı Qüvvələri nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkilini, birgə təlimlərin keçirilməsinin vacibliyini qeyd edərək hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini və bunun gələcəkdə də davam etdirilməsinin zəruriliyini bildirib.

Səfir Alper Coşkun ölkəsinin Azərbaycana yeni təyin olunan hərbi attaşesi, briqada generalı İhsan Başbozkurtu təqdim edib.

Müdafiə naziri yeni təyin olunan hərbi attaşeni Azərbaycanda fəaliyyətə başlaması münasibəti ilə təbrik edərək ölkələrimizin Silahlı Qüvvələri arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "TurAz Qartalı - 2015" təlimlərində iştirak edəcək Türkiyə HHQ-nin mühəndis-texniki heyəti Azərbaycandadır

***Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə iştirakı ilə "TurAz Qartalı - 2015" taktiki təlimlərində iştirak etmək məqsədilə türkiyəli mühəndis-texniklərdən ibarət geniş tərkibdə heyət ölkəmizə gəlib.***

Hazırda birgə təlimlərin aktiv fazasının keçirilməsinə hazırlıq məqsədilə heyətlərin toplanması, təlimin planlaşdırılması və digər təşkilati məsələlərlə əlaqədar fəaliyyətlər həyata keçirilir.

Qeyd edək ki, birgə təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitəsi, o cümlədən MiQ-29, F-16 qırıcı, Su-25 hücum, F-4E bombardmançı, C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-35 döyüş, Mi-17 və Sikorski UH-60 döyüş-nəqliyyat, Cougar AS532 axtarış-xilasetmə helikopterləri iştirak edəcəklər.

Təlimlər sentyabrın 18-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq baş tutdu

***ATƏT-in nümayəndələri kənd sakinlərinin iradlarını dinləməli olublar***

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq avqustun 25-də Azərbaycan Respublikasının Qazax rayonunun Məzəm kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Svedberq keçiriblər. Təmas xəttinin qarşı tərəfində isə monitorinqə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Yevgeni Şarov nəzarət ediblər.

Monitorinqdən sonra ATƏT-in nümayəndələri Qazax rayonunun cəbhə xəttinə yaxın kəndlərinin sakinləri ilə görüşüblər.

ATƏT-in nümayəndələrinə atəşkəsin mütamadi pozulmasından şikayətlənən sakinlər bildiriblər ki, ermənilər kəndləri, təsərrüfat sahələrini güllə atəşinə tutmaqla hər birimizin həyatına təhlükə yaradırlar.

Sakinlər beynəlxalq nümayəndəliyin fəaliyyətinin nəticəsizliyindən də şikayət ediblər. "Keçirilən monitorinqlər hər dəfə nəticəsiz qalır. Artıq xalqın səbr kasası daşmaq üzrədir. İyirmi ildən artıqdır ki, torpaqlarımız düşmən tapdağı altındadır. Bir sıra beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı, münaqişənin həllinə ikili standartlar nümayiş etdirilir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı və öz Vətənində məcburi köçkünə çevrilən bir milyondan artıq insanın pozulmuş hüquqları bərpa olunmalıdır. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar ədalətli mövqe tutaraq işğalçıya öz yerini göstərməlidir", - deyə onlar vurğulayıblar.

Sonra ATƏT-in nümayəndələri Məzəm kəndinin sakini Sarif Rəhimovun evinə gələrək deyilənlərin həqiqət olduğunun şahidi olublar. Onlar evin divarlarında, hətta dəmir darvazasında ermənlər tərəfindən atılan çoxlu güllə izlərini əyani olaraq görüblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 167 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Ağdam rayonunun Novruzlu, Sarıcalı, Kəngərli, Yusifcanlı, Şıxlar, Şuraabad, Mərzili, Qorqan, Şirvanlı, Cəvahirli, Çıraqlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, eləcə də Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***25 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 146 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində, Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Çaylı, Ağdam rayonunun Novruzlu, Çıraqlı, Yusifcanlı, Şuraabad, Mərzili, Şirvanlı, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Təlim*

# "Bacarıqlı mütəxəssis kimi yetişmək üçün daim çalışmaq lazımdır"

## Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirmələri qoşunlarda döyüş təcrübəsi keçirlər

***Hərbi mütəxəssislərin öz ixtisaslarına lazımınca yiyələnməsində praktik hazırlığın önəmi böyükdür. Ölkəmizdə hərbi təhsilin mükəmməl sistemi yaradılıb və əsgərdən tutmuş komandir heyətinədək hər kəs ixtisasına yiyələndikdən sonra vəzifəyə təyin edilir. Bu, gələcəyin zabitlərinə eynilə aiddir.***

Ümumiyyətlə, onu deyə bilərəm ki, Azərbaycanın ali hərbi təhsil müəssisələrində nəzəri və praktik hazırlığı üçün yüksək səviyyədə şərait yaradılıb. Texniki, taktiki və atəş hazırlığına yiyələnmək üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müasir avadanlıqlarla təchiz edilmiş sinif otaqları, simulyatorlar kursantların bilik və vərdişlər qazanmasında önəmli rol oynayır. Eyni zamanda məktəbin yetirmələri hərbi hissələrdə qoşun təcrübəsi keçməklə öz bilik və vərdişlərini artırırlar.

"N" hərbi hissəsində ezamiyyətdə olarkən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirmələri ilə rastlaşdıq. Onlar tankçı ixtisası üzrə burada təcrübə keçməyə gəlib. Zirehli texnika parkında onlar silahları söküb-yığmaqla məşğul idilər.

- Bildiyiniz kimi, tədrisi və imtahanları müvəffəqiyyətlə başa vurmuş gələcəyin zabitləri ixtisaslarına və döyüş hazırlığı planına uyğun olaraq, qoşunlarda döyüş təcrübəsi keçirlər, - mayor Elxan Həsənov bizimlə söhbətində dedi. - Buraya hazırda üçüncü kursu bitirmiş kursantlar gəliblər. Yəni mahiyyət etibarilə onlar nəzəri dərslərdə iştirak edib, təlim mərkəzlərində lazımi vərdişlər qazanıblar.

Doğrudan da, yaxşı mütəxəssisi ilk növbədə təcrübə yetişdirir. Nəzəri biliklər praktik vərdişlərlə möhkəmləndirilmədikdə səmərəsi az olur. İndi tankçı ixtisasına daha yaxşı yiyələnmələri üçün kursantlar hərbi hissəyə göndəriliblər. Biz hərbi hissəyə gələndə artıq bir neçə gün idi ki, onlar burada - bilavasitə qoşunlarda təcrübələrini artırırdılar. Təxminən bir ay müddətində onlar taqım komandiri kimi döyüş hazırlığı məşğələlərində iştirak edəcək, praktik vərdişlərə yiyələnəcəkdilər.



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursantlara hazırlıq səviyyəsinə uyğun praktika müddətində yerinə yetirmək üçün tapşırıqlar verilib. Məktəbdə müvafiq kafedra tərəfindən onlar üçün tədris sualları hazırlanıb. Həmin suallar əsasında kursantlar təcrübə keçirlər. Şərti olaraq onlar hərbi hissə komandiri tərəfindən müəyyən edilmiş vəzifələri icra edirlər. Yəni gələcəyin zabitləri burada tank bölüklərində taqım komandirlərinin vəzifələrini bir ay müddətində yerinə yetirəcəklər. Praktikanın yekununda isə onların fəaliyyəti qiymətləndiriləcək.

- Hazırda kursantlar üzərlərinə düşən vəzifələri həvəslə yerinə yetirirlər, - zabit E.Həsənov deyir. - Belə də olmalıdır. Yaxşı mütəxəssis kimi yetişmək üçün daim çalışmaq lazımdır. Vətənin müdafiəsində dayanmağı özünə sənət seçmiş gələcəyin zabitləri üçün bu daha çox lazımdır. Kursantlarımız bunu başa düşdükləri üçün praktika müddətində bilavasitə öz təcrübələrini möhkəmlədirlər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Ermənistanda böhran dərinləşir

***Ermənistanın işğalçı, təcavüzkar siyasəti nəticəsində regional və beynəlxalq miqyasda təcrid vəziyyətinə düşməsi bu ölkə daxilində mövcud olan böhranın son vaxtlar daha da dərinləşməsini şərtləndirib. Ermənistan ciddi siyasi, sosial-iqtisadi və demoqrafik böhranla üz-üzə qalıb. Bununla yanaşı, hakimiyyətdə olan cinayətkar, kriminal rejimin qəbul etdiyi qərarlar vətəndaşların geniş etirazına səbəb olmaqla yanaşı, xaos və qarşıdurmalara da rəvac verib.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosenti, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin Əlaqələndirmə Şurasının sədri, Qarabağ Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Əhmədov Ermənistandakı siyasi, sosial-iqtisadi vəziyyəti şərh edərkən bildirib.

E.Əhmədov deyib: Hazırda bütün sahələrdə iflasa uğrayan Ermənistanın dövlət borcu rekord səviyyəyə çatıb. Ermənistan Mərkəzi Bankının hesabatına əsasən ölkənin xarici borcu gəlirləri 60 faiz üstələyir. Bu isə son 10 il üçün ən böyük göstərici hesab olunur. Bu baxımdan hökumət yaranan problemləri həll etmək iqtidarında deyil. Çünki Ermənistan tamamilə iflasa uğrayıb və borc içində olan ölkənin rəhbərliyi nə edəcəyini bilmir.

Bundan əlavə, Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyinə və təcavüzkar siyasətindən əl çəkmədiyinə görə faktiki olaraq Xəzər dənizinin neft və qaz ehtiyatları ilə bağlı əsas geosiyasi və geoiqtisadi layihələrdən kənarda qalıb. Azərbaycan ərazilərinin işğal edilməsi və Ermənistanın Türkiyəyə qarşı ərazi iddiaları bu ölkəni tam maliyyə böhranı və regionda təcrid olunmuş vəziyyətinə gətirib çıxarıb. Ölkənin büdcəsi demək olar ki, boşdur. Ermənistanı aclıqdan xilas edən ancaq erməni diasporunun və ABŞ Konqresinin mütəmadi maliyyə yardımıdır. Dərin iqtisadi tənəzzül və xaos insanların həyat şəraitini olduqca çətinləşdirib. Bu baxımdan, xaricdən gələn ianələrə bel bağlayan işğalçı ölkənin gələcəyinin də qeyri-müəyyən olduğunu qeyd etmək mümkündür.

Bu faktı da qeyd etmək vacibdir ki, etnik təmizləmə nəticəsində hazırda Ermənistan mono-etnik, yəni milli azlıqların yaşamadığı dövlətə çevrilib. Bununla yanaşı, bu gün özünü təcrid vəziyyətinə salmış Ermənistan əhalisinin sayı durmadan azalır. BMT İnkişaf Proqramının himayəsi altında çap olunmuş İnsan Potensialının İnkişafı haqqında məruzədə göstərilir ki, hər il Ermənistanı 23-27 min adam tərk edir. XX əsrin 80-ci illərinin sonunda 3,7 milyon əhalinin yaşadığı Ermənistanda əhalinin 1,5 milyondan çoxu (ümumi əhalinin 40%-i) müstəqillik dövründə aclıq, işsizlik, səfalət ucbatından xarici ölkələrə mühacirət edib və bu proses indi də davam etməkdədir.

Bununla yanaşı, münaqişənin nizamlanmaması ilk növbədə Ermənistandakı cinayətkar və kriminal rejiminə - Qarabağ klanına sərf etmir. Mövcud status-kvonun dəyişməsi, yəni, Azərbaycan ərazilərinin işğaldan azad olması bu klanın həyati maraqlarına uyğun gəlmir. Bu vəziyyətdən, yəni, Ermənistanın cinayətkar rejiminin başında duranlar, xüsusilə forpost, marionetka dövlətin "siyasi elitası" Azərbaycan ilə münaqişədən öz mənafeyi üçün istifadə edir. Hakimiyyət orqanları sosial etirazların təzyiqi ilə üzləşdikdə guya Azərbaycan tərəfindən hərbi əməliyyatlara başlanması üçün əlverişli şərait yaranmasında ölkəmizi təqsirləndirirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun birgə mətbuat konfransında Ermənistanın cinayətkar rəhbərinin Azərbaycanı demokratiyanın pozulmasında, Ermənistana qarşı təcavüzkarlıqda ittiham etməsi kimi sərsəm bəyanatlarına cavab olaraq dövlətimizin başçısı deyib: "Bu, tamamilə gülüncdür. Çünki ola bilsin ki, Sarkisyan demokratiya haqqında danışmalı olan ən sonuncu adamdır. 2008-ci ildə özündən əvvəlki prezident tərəfindən Ermənistanın başçısı kimi təyin olunan, seçkiləri saxtalaşdıran, sonra ordudan istifadə etməklə dinc etiraz aksiyasını yataraq 10 insanın qətlinə səbəb olan şəxsin istənilən ölkədə demokratiya haqqında danışmağa heç bir mənəvi haqqı yoxdur. Azərbaycan və Ermənistanın, əgər bunu belə söyləmək olarsa, tərəzinin eyni gözünə qoyulması ilə əlaqədar ittihama gəldikdə isə bu ittiham Azərbaycan tərəfindən irəli sürülsəydi, daha təbii olardı. Çünki biz beynəlxalq ictimaiyyətin təcavüzkar və onun qurbanları arasında çox aydın fərq qoymalı olduğunu hesab edirik".

Bununla yanaşı, dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olduğunu diqqətə çatdıraraq qeyd etdi ki, "…Necə olur ki, dünyada əhalisinin 99 faizinin bir millətin nümayəndələrinə aid olan ölkədə - Ermənistanda ksenofobiya haqqında hekayədən danışırlar. Nə üçün digər millətlərin nümayəndələri orada özlərinə yer tapa bilmirlər? Lakin Azərbaycan öz ərazisində çoxlu etnik qrupların nümayəndələrinin və müxtəlif dini etiqadı olan insanların yaşaması tarixindən bu gün də qürur duyur. Ölkəmiz bu gün bütün dinlərin və etnik qrupların nümayəndələri üçün bir evdir. Bu gün qlobal miqyasda Azərbaycan müxtəlif din və etnik qrup nümayəndələrinin sülh şəraitində birlikdə yaşamasının yaxşı nümunəsidir. Buna görə də qurban və təcavüzkar arasında fərq qoyulmalıdır. Təcavüzkar məsuliyyətə cəlb edilməlidir".

Ermənistan hakimiyyətini qəsb etmiş cinayətkar rejimin başında duranlar münaqişənin nizama salınması prosesində ölkəmizi güzəştə getməməkdə ittiham edirlər. Ancaq bu gün torpaqlarına təcavüz edildikdən və ərazisi işğala məruz qaldıqdan sonra da danışıqlar prosesində Azərbaycanın iştirak etməsinin özü təcavüzkar dövlət üçün elə ən böyük güzəşt deməkdir. Belə olan halda Ermənistanın qeyri-konstruktiv mövqeyi və təcavüzkar siyasəti Azərbaycanı münaqişənin nizamlanması üçün digər variantlar axtarmağa məcbur edir. Ermənistanın cinayətkar, kriminal diktatura rejimi ölkədəki siyasi, sosial-iqtisadi və demoqrafik böhrandan daim fikri yayındırmaq məqsədilə sərhəddə və qoşunların təmas xəttində təxribatlar törədir. Son hadisələr, eləcə də təcavüzkar dövlətin mütəmadi olaraq ərazilərimizi atəşə tutmaqla törətdiyi diversiya hərəkətləri və buna Azərbaycanın tutarlı cavab verməsi düşməni vahimə içində saxlamaqla yanaşı, qüdrətli ordumuzun işğal edilmiş ərazilərimizin hərbi yolla qaytarmağa hazır olmasını bir daha təsdiq edir.

Ancaq 20 ildən çoxdur ki, təcavüzkar Ermənistan aparılan danışıqlar prosesində həmişə qeyri-konstruktiv mövqedən çıxış edərək hər dəfə bu prosesi süni surətdə uzatmağa çalışır. Lakin Azərbaycanın ərazi bütövlüyünün heç vaxt aparılan danışıqların mövzusu olmadığını və bundan sonra da olmayacağını daim vurğulayan Prezident İlham Əliyev deyib: "Biz danışıqları sadəcə olaraq danışıqlar naminə aparmayacağıq. Danışıqların imitasiyası ilə məşğul olmaq üçün Ermənistana imkan verməyəcəyik. Biz o vaxta qədər danışıqlar aparacağıq ki, ərazi bütövlüyümüzü bu yolla bərpa edə biləcəyimizə ümidimiz qalacaqdır. Əgər görsək ki, bu, mümkün deyil, onda Azərbaycan dövləti hərbi yoldan istifadə edərək öz ərazi bütövlüyünü bərpa edəcəkdir".

**AZƏRTAC-ın materialları əsasında**

# Mingəçevirdə "Ön səngərdən gələn var" adlı tədbir keçirilib






***Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Mingəçevir şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Ön səngərdən gələn var" adlı tədbir keçirilib.***

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi qarşısına gül dəstələri qoyulub, Şəhidlər xiyabanı ziyarət edilib.





Heydər Əliyev Mərkəzində keçirilən tədbiri Mingəçevir şəhər İcra Hakimiyyəti başçısının birinci müavini İlham İsmayılov açaraq bildirib ki, son vaxtlar Ermənistan silahlı bölmələri gündə bir neçə dəfə atəşkəs rejimini pozaraq mövqelərimizi intensiv atəşə tuturlar. Buna baxmayaraq, düşmən cavab atəşi ilə susdurulur, kəşfiyyat-təxribat qruplarının qarşısı mərdliklə alınır. Düşmənin bir neçə pilotsuz uçan aparatının və təxribat uçuşları edən helikopterinin məhv edilməsi xəbəri bütün xalqımız kimi mingəçevirlilərin də sevincinə səbəb olub. Xalq öz ordusuna inanır və ona güvənir. Hazırda Silahlı Qüvvələrin qoşun növlərində, eləcə də cəbhə bölgələrindəki hərbi hissələrdə xidmət edən mingəçevirlilərin sayı yetərincədir. İldən-ilə xüsusi təyinatlı təhsil müəssisələrinə daxil olan mingəçevirli gənclərin sayı daha da çoxalır. Həqiqi hərbi xidmətini başa vurmuş onlarla gəncimiz yenidən könüllü olaraq orduya qayıdıb və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirməkdədir.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti hər gün cəbhə bölgələrindəki vəziyyət barədə rəsmi məlumatlar yaysa da, bir neçə gün öncə şəhərimizin ictimaiyyəti ön səngərdən gələn hərbi qulluqçuların çıxışlarını dinləmək, cəbhədəki vəziyyət haqqında onlardan ətraflı məlumat almaq arzusunda olduqlarını bildirmişdi. Odur ki, Müdafiə Nazirliyinin rəhbərliyi xahişimizi nəzərə alaraq öz əməkdaşlarını və cəbhə bölgələrindən bir neçə hərbi qulluqçunu Mingəçevir şəhərinə ezam etmişdir.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani son günlər ərzində bir çox cəbhəboyu rayonlarda yerli əhali və Vətən müdafiəçiləri ilə görüşlərindən bəhs edərək bildirib ki, bu gün döyüşçülərimiz ön səngərdə ayıq-sayıqdırlar, xalqımızın ordumuza daim dayaq olmasından, onların uğur və nailiyyətlərindən fərəhləndiklərindən böyük qürur duyurlar. Güllə, mərmi səslərinə öyrənmiş yerli əhali isə döyüşçülərimizin iradə və mətinliyinə arxalanaraq, dədə-baba ocaqlarını tərk etmək fikrində deyil, əksinə, qurub-yaradır, əkib-becərir, işğal altında olan torpaqlarımızın da tezliklə azad olunacağına inanırlar.

Bir neçə gün öncə təxribat xarakterli uçuşlar edən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçan aparatı məhv edən əsgər İlkin Əliquliyevin çıxışı tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. O deyib ki, həqiqi hərbi xidmətini başa vurmasına bir ay qalıb. Ancaq ordudan ayrılmaq niyyətində deyil. Tərxis olunduqdan sonra da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirəcək və müqəddəs bayrağımızı Xankəndi, Şuşa, Laçın və işğal altında olan digər əzəli torpaqlarımızda dalğalandırmayınca silahını əlindən yerə qoymayacaqdır.

Zabit Eldəniz Gözəlov mingəçevirli gənclərin də ön səngərdə Vətən qarşısında əsgəri borclarını şərəf və vicdanla yerinə yetirdiklərindən danışaraq onların valideynlərinə komandanlığın təşəkkürünü çatdırıb.

Özüyeriyən artilleriya qurğusunun sürücü-mexaniki Fərman Fərmanzadə Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovla qohumluq əlaqələrindən, əmisi oğlunun Qarabağ uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucaldığından bəhs edib. O, fəxrlə bildirib ki, əsgərliyini çoxdan başa vursa da, bu gün yenə də ordu sıralarındadır. O, döyüşçü dostları ilə birlikdə tezliklə xalqımızı Qarabağdan gətirəcəkləri qələbə müjdəsi ilə sevindirəcəklər.

Ön səngərdə xidməti borcunu yerinə yetirərkən şəhid olmuş əsgər Ağayev Fərid Rüfət oğulunun "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ailəsinə təqdim edilib. Şəhidin anası Gülmira xanım göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib. Ananın dediyi "Oğul düşmən çəpəridir, təki Vətən sağ olsun!" kəlmələri alqışlarla qarşılanıb.

Ön səngərdən gələn gənc əsgər Məmmədov Yalçın Yolçu oğlunun şəhid anasına müraciətlə söylədiyi "Mən Şəmkir rayonundanam. Atam Ağdərə uğrunda şəhid olandan iki ay sonra dünyaya gəlmişəm. Mən üzünü görmədiyim şəhid atamla fəxr etdiyim kimi, siz də şəhid oğlunuzla fəxr edin, əziz ana!" sözləri tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

"Ön səngərdən gələn var" adlı tədbir Müdafiə Nazirliyi Sənədli və Tədris filmləri kinostudiyasının istehsalı olan "Güclü dövlətin güclü ordusu" sənədli filminin nümayişi ilə başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Vətən uğrunda həlak olmaq əbədi həyat qazandırır"

## Ağcabədidə bu deviz altında keçirilən tədbir ordu ilə xalqın monolit birliyinin təntənəsinə çevrilib

***Müdafiə Nazirliyi və Ağcabədi rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən vətənpərvərlik tədbirləri artıq ənənə şəklini alıb.***

Ağcabədililər on mindən çox iştirakçısı olan "Xalq və ordu birdir" teatrlaşdırılmış kütləvi vətənpərvərlik mərasiminin xoş təəssüratlarını hələ də unutmurlar. Rayon ictimaiyyətinin nümayəndələri tez-tez ön səngərlərə baş çəkir, Vətən müdafiəçilərinin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik ruhunun yüksəldilməsində səylərini əsirgəmirlər. Ağcabədililər həm də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə yaradılmış Silahlı Qüvvələrə Yardım Fondunun öncüllərindəndir.

Mərkəzi Mədəniyyət evində keçirilən növbəti tədbirə rayonun ziyalıları, müharibə və əmək veteranları, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, RİHB-nin inzibati ərazi dairələri üzrə nümayəndələri, ümumtəhsil məktəblərinin direktorları, məktəbdənkənar, sinifdənxaric işlər üzrə təşkilatçı müavinləri hərbi qulluqçular da dəvət edilmişdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov ulu öndər Heydər Əliyevin bir kəlamını xatırladaraq deyib ki, ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdəndir və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik. Bu mənada, Ağcabədi rayonunda da ordu mövzusu prioritetdir.

Nəzərə çatdırılıb ki, ağcabədililər keçən əsrin əvvəllərində erməni daşnaklarına qarşı, 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizmə qarşı, müstəqillik illərində isə Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həmişə rəşadət və şücaət nümunələri göstəriblər.

187 nəfər Ağcabədi sakini şəhidlik zirvəsinə ucalıb, 115 nəfər Qarabağ döyüşlərində sağlamlığını itirib, üç nəfər "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb, onlarla gənc müstəqil respublikamızın döyüş orden-medalları ilə təltif olunub.

Azərbaycan tarixinə Dövlət himnimizin müəllifi olan Üzeyir Hacıbəyli kimi, Şuşa qalasının əsasını qoymuş Pənahəli xan kimi görkəmli şəxsiyyətlər bəxş etmiş Ağcabədi elində bu gün də ordumuz üçün həm fiziki, həm də mənəvi cəhətdən sağlam, vətənpərvər gənclərin hazırlanması rayon rəhbərliyinin diqqət mərkəzindədir, ordu ilə xalqı sıx tellər birləşdirir.



Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Vətən uğrunda həlak olanların ölməzliyindən, onların xalqın yaddaşında əbədi yaşamasından, qəhrəmanlıq ənənələrinin şərəflə davam etdirilməsindən, şəhidlərin xatirəsinin dövlət səviyyəsində yüksək tutulmasından, şəhid ailələrinə, müharibə əlil və veteranlarına göstərilən diqqət və qayğıdan danışıb.

Polkovnik A.Qurbaninin həlak olduqları vaxtdan 71 il sonra müharibədən itkin xəbərləri gələn 5 nəfər Ağcabədi sakininin Moldova Respublikasında məzarlarının yerlərinin müəyyən edilməsi barədə xəbəri uzun illərin həsrətinə son qoyub. Qeyd olunub ki, həqiqətən Vətən uğrunda həlak olanlar heç vaxt ölmür, illər keçsə, əsrlər, nəsillər bir-birini əvəz etsə də, onlar xatirələrdə əbədi yaşayırlar.

Millət vəkili Tahir Rzayev, Minəxorlu kənd ağsaqqalı Ramiz Həsənoğlu, Qarabağ müharibəsinin əlili, "Tərəqqi" medallı Ramil Nağıyev, kənd müəllimi Mahirə Eyvazova dövlət təhlükəsizliyimizin, Vətənin müdafiəsinin etibarlı təminatçısı olan Azərbaycan Ordusunun bugünkü güc və qüdrətindən qürur duyduqlarını iftixar hissi ilə vurğulayıblar.

"Bu gün ordumuz sağlam mənəviyyata malik vətənpərvər qüvvələrdən ibarətdir. Biz işğal altında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın hər bir əmrinə hər an hazırıq!", - deyə cəbhə bölgələrindən gələn əsgər və zabitlər tədbir iştirakçılarını əmin ediblər ki, onlar öz məsuliyyətlərini dərindən dərk edir, müstəqil Azərbaycan dövləti və xalqı qarşısında əsgəri borclarını şərəf və vicdanla yerinə yetirməyə çalışır və tezliklə xalqımızı Qarabağdan gətirəcəkləri zəfər müjdəsi ilə sevindirəcəklər.

Tədbirin sonunda xidməti borcunu yerinə yetirərkən həlak olmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, manqa komandiri, şəhid Atayev Anar Mamed oğlunun ölümündən sonra layiq görüldüyü "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ailəsinə təqdim edilib. Şəhid atası Mamed Hümbət oğlu Atayev şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib və üç oğlu ilə birlikdə Qarabağ uğrunda döyüşlərə hazır olduqlarını bəyan edib.





Tədbirdən sonra iştirakçılar Şəhidlər xiyabanında aparılan yenidənqurma işləri ilə tanış olublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

### Ermənistanda əsgər öz hərbçi yoldaşını güllələyib



Ermənistanın tert.am saytının verdiyi xəbərə görə, işğalçı Ermənistan ordusunda əsgər öz hərbçi yoldaşını güllələyib.

Hadisə avqustun 18-i günorta saatlarında baş verib. Verilən məlumata görə, açılan atəş nəticəsində hadisə yerində keçinən müddətdən artıq hərbi qulluqçu, 25 yaşlı Aşot Ovannisyandır.

İnsidentlə bağlı cinayət işi qaldırılıb.

### Böyük Britaniya İrandakı səfirliyinin fəaliyyətini bərpa edib



Böyük Britaniya İrandakı səfirliyinin fəaliyyətini bərpa edib. Qərb dövlətləri ilə İran İslam Respublikası arasında nüvə proqramına dair əldə edilən razılaşmadan sonra Böyük Britaniya-İran münasibətlərində irəliləyiş müşahidə olunur.

AZƏRTAC xəbər verir ki, səfirliyin fəaliyyətinin bərpa edilməsi münasibətilə keçirilən mərasimdə Böyük Britaniyanın xarici işlər naziri Filip Hamond iştirak edib və o, səfirliyin binası qarşısında ölkəsinin bayrağını qaldırıb.

Qeyd edək ki, Böyük Britaniyanın İrandakı diplomatik nümayəndəliyi Qərb ölkələri tərəfindən İrana qoyulan sanksiyalara etiraz edən nümayişçilərin səfirliyə hücum etməsi səbəbindən 2011-ci ildə fəaliyyətini dayandırmışdı.

### Rusiya Həştərxan yaxınlığında qitələrarası ballistik raketi sınaqdan keçirib



Rusiyanın Həştərxan vilayətində qitələrarası ballistik raket sınaqdan keçirilib. APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, raket "Kapustin Yar" poliqonunda buraxılıb. Bu barədə Rusiya Strateji Təyinatlı Raket Qoşunlarının mətbuat xidmətinin məlumatında bildirilir.

"22 avqust tarixində saat 18.13-də (Bakı vaxtı ilə 20.13-də) Strateji Təyinatlı Raket Qoşunlarının döyüş heyəti Həştərxan vilayətində "Kapustin Yar" mərkəzi dövlət poliqonundan "Topol" RS-12M tipli qitələrarası ballistik raketinin buraxılışını həyata keçirib", deyə məlumatda bildirilir.

Məlumata görə, ballistik raketin təlim döyüş hissəsi Qazaxıstandakı poliqonda yerləşən şərti hədəfi vurub.

### Türkiyədə növbəti terror hadisəsi baş verib



Türkiyədə növbəti terror hadisəsi baş verib. APA-nın Anadolu Agentliyinə istinadən verdiyi xəbərə görə, PKK terror təşkilatının üzvləri Diyarbəkirin Kulp qələbəsindəki su-elektrik stansiyasının tikintisinin aparıldığı əraziyə silahlı hücum təşkil edib.

Hücumun qarşısını alarkən Türkiyə Silahlı Qüvvələrinin bir əsgəri şəhid olub, 3-ü isə yaralanıb. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı yazılı açıqlamasında bildirib ki, terrorçulara layiqli cavab verilib.

Açıqlamada terrorçuların zərərsizləşdirilməsi üçün hərbi əməliyyatların davam etdiyi, yaralı əsgərlərinin səhhətinin normal olduğu bildirilir.

### Aralıq dənizində sutka ərzində 3 min miqrant xilas edilib



İtaliya Liviya sahillərində qəzalı və yararsız üzmə vasitələrindən 3 minədək qaçqının xilas edilməsi əməliyyatı keçirib. APA-nın "Qazeta.ru"ya istinadən verdiyi xəbərə görə, bir günlük əməliyyata həmçinin İtaliyanın hərbi və patrul gəmiləri də cəlb edilib.

Məlumata görə, təkcə iki taxta qayıqdan 1000-dək miqrant xilas edilib. Rezin və balıqçı qayıqlardan, həmçinin dənizdə üzmək üçün istifadəyə yararsız digər üzmə vasitələrindən də xeyli qaçqın xilas olunub.

Qeyd edək ki, bu arada Almaniya və Fransa Avropa İttifaqını miqrasiya siyasətində vahid mövqedən çıxış etməyə çağırıblar.

### Amsterdam-Paris sərnişin qatarına silahlı hücum olub, yaralılar var




Naməlum silahlı şəxs Amsterdam-Paris sərnişin qatarına hücum edib. APA-nın verdiyi xəbərə görə, bu barədə "Le Figaro" məlumat yayıb.

Məlumata görə, silahlının atəş açması nəticəsində 3 nəfər yaralanıb. Cinayətkarın artıq saxlanıldığı bildirir.

"TASS"-ın məlumatına əsasən, qatarda atəş açan Mərakeş əsilli 26 yaşlı şəxs olub. İlkin məlumata görə, hücum zamanı o avtomat və bıçaqla silahlanıb.

Yaralananlar arasında "Leon" və "Klan Saprano" filmlərində çəkilmiş tanınmış aktyor Jan Yuq Anqkand var. İnsident zamanı həmçinin amerikalı və britaniyalı 2 keçmiş hərbçi də yaralanıb. Məlumata görə, məhz onlar vaxtında reaksiya verərək silahlı şəxsi zərərsizləşdirə bilib.

### Şimali Koreya demilitarizasiya zonasına artilleriya sistemlərini yerləşdirib



Şimali Koreya Xalq Demokratik Respublikası Cənubi Koreya ilə sərhəddəki demilitarizasiya zonasına 76,2 mm-lik artilleriya sistemlərini yerləşdirib. APA-nın verdiyi xəbərə görə, bu barədə "The New York Times" məlumat yayıb.

Nəşr qeyd edir ki, demilitarizasiya zonasına artilleriya sistemlərinin yerləşdirilməsi 1953-cü ildə əldə olunmuş atəşkəs barədə sazişə ziddir.

Məlumata görə, hazırda Cənubi Koreya hərbçiləri pilotsuz kəşfiyyat təyyarələrinin vasitəsilə KXDR ordusunun və topların sayını müəyyənləşdirir.

Bundan əvvəl ABŞ Cənubi Koreya ilə birgə hərbi təlimləri dayandırıb, lakin az sonra bərpa edib.

**Hazırladı: Əbülfət QASIMOV**

*Vətənpərvərlik*

# "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsində



***Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunan "Gənc Heydərçilər"in hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə avqustun 17-dəyola salınması haqqında ötən nömrəmizdə xəbər vermişdik.***

İndi isə yolumuz "N" hərbi hissəsində təşkil olunan "Gənc Heydərçilər"in düşərgəsinədir. Bakıdan yola düşəndə günəşin yandırıcı şüaları dözülməz olsa da, oralarda hava çox sərin və bir o qədər gözəldi.

Mənzil başına çatanda bizi kapitan Mərdan Muradov qarşılayır. Onunla hal-əhval tutduqdan sonra balaca əsgərlərimizin yanına yollanırıq. "Gənc Heydərçilər" düşərgəsində məsul şəxslərdən olan polkovnik-leytenant Kamran Nəsibovla görüşürük. Onun sözlərinə görə, Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyəti tərəfindən yaradılan "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi gənclərin vətənpərvər və sağlam ruhda böyüməsində böyük rola malikdir. Düşərgə müddətində gələcəyin əsgərləri Quba, Qusar və Xaçmaz rayonlarının tarixi və görməli yerlərinə səyahət edəcək, hərbi hissədə əsgər həyatı, silah-sursatla yaxından tanış olacaq, hərbi nizam-intizamı öyrənəcəklər. Həmçinin, həvəsləndirici yarışlar keçiriləcək və gələcəyin əsgərləri arasında rəqabət yaranacaq.

Artıq balacaların arasındayıq. İdeoloji otaqda şahmat yarışı keçirilir. Düşərgədə taqım komandiri kimi vəzifələndirilən Ümid Sadıqov hazırda kursantdır, 4-cü kursda təhsil alır.

- Mən də "Gənc Heydərçilər" sırasında olmuşam, - deyir kursant. - Bu sıralarda öyrənib yaşadıqlarım məni zabit olmağa həvəsləndirdi. Və tezliklə hərbçi kimi Silahlı Qüvvələrimizin sıralarında olacağam. Bu gün düşərgədə olmaqdan çox şadam. Burada iştirakıma səbəb isə gələcəyin əsgərlərinə, zabitlərinə hərbin sirlərini öyrətmək, vətənpərvərlik ruhunu aşılamaqdır. Gələcəkdə bu sıralardan layiqli zabitlər çıxacağına inanıram.

Ümid Sadıqov bizi şahmat yarışında istirak edən Orxan Qurbanov və Babəli Babayev ilə tanış edir. Söhbət zamanı Orxanın 11-ci sinifdə oxuduğunu öyrənirik. Şahmat həvəskarı olan gələcəyin əsgəri düşərgədə olmaqdan sevincli olduğunu bildirir. Burada həm əyləndiklərini, həm də öyrəndiklərini qeyd edir.

Babəli Babayev isə 10-cu sinif şagirdidir. Əmisi kimi hərbçi olmaq niyyətindədir.

- Şahmat oynamağı sevirəm. Uşaqlıqdan məşğul olduğum üçün düşərgədə artıq güclülər sırasındayam. Qalib gələcəyimə inanıram, - deyir Babəli.

Növbəti həmsöhbətlərim isə bir masa arxasında oturub bir-birilərinə rəqib olan Feyzi Feyziyev və Səfər Niftəliyevdir. Onlar da düşərgədə olmaqdan razı olduqlarını bildirirlər. Müxtəlif rayonları təmsil edən yoldaşları ilə yarışlarda iştirak etməyin qürurlu olduğunu deyirlər.

Sonda Ümid Sadıqov bildirir ki, düşərgədə 7 taqım var. Əvvəlcə yarış taqımda keçirilir, ən güclülər seçilərək taqımlararası oyunlarda iştirak edirlər. Qaliblərə medal və kubok verilir.

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu",
fotolar
Mahmud
MÖHBALIYEVİNDİR**



## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*Tarix*

# Erməni məsələsi başqa formatda

Bolşeviklərin nəzarətində olan qəzetlər bu olaya qiymət verərkən türk ordusuna düşməncəsinə yanaşırdılar. Bu mətbuat orqanları döyüş əməliyyatlarının gedişini də birtərəfli işıqlandırmışdılar. Məsələn, Qaraməryəm ətrafındakı döyüşü şərh edən bir müəllif türklərin 200 nəfər itki verdiyini sevinclə xəbər verir, Şaumyanın mərkəzə vurduğu teleqramı alqışlayırdı. "Bakı Şurasının əxbarı" adlı qəzet "Bakının müdafiəsi üçün təyyarələrin gətiriləcəyini" yazırdı. Digər mətbuat orqanları da döyüşlərdən verdiyi məqalə və xəbərlərdə antitürk mövqeyi sərgiləyirdi. 1918-ci li sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının erməni, rus, ingilis qüvvələrindən azad olunması Cənubi Qafqazda çıxan məbuat orqanlarında fərqli mövqelərdən işıqlandırılırdı. Gəncədə ilk sayı işıq üzü görən "Azərbaycan" qəzeti bu hadisəni "qardaş köməyi" adlandırırdı. 36 saat davam edən Bakı yürüşündə Qafqaz İslam Ordusu 1000 nəfər itki vermişdi. Bakı ətrafında gedən döyüşlər zamanı ermənilərdən, ruslardan və ingilislərdən ibarət xeyli sayda əsir götürüldüyü bildirilirdi. Bunu "Azərbaycan" qəzeti özünün 2-ci sayında yazmışdı. Tarixi sənədlərdə də belə qeydlər vardır. Ermənilər bu rəqəmləri şişirtsələr də əslində Bakı döyüşlərində 17 erməni, 9 rus, 10 gürcü zabitinin, 1154 erməni, 383 rus, 4 ingilis və digər millətlərə aid olan 113 əsgərin əsir alındığı barədə məlumat var. Qafqaz İslam Ordusunun Bakını azad etməsindən sonra qarşıda duran vəzifələrdən biri Qarabağı da azad etmək idi. Amma bu xilaskar orduya müyəssər olmadı. Xilaskar ordu bağlanmış Mudros müqaviləsinə görə Azərbaycanı tərk etməli oldu. Bakı fatehi Nuru paşa isə Azərbaycan Ordusunda xidmətə keçmək barədə raport yazaraq müqavilə imzaladı. Lakin bu qərar, yəni Azərbaycan hökumətinin burada hərbi xidmət keçmək istəyən türk əsgər və zabitləri üçün verdiyi 5887 saylı əmrini Bakıya qoşun çıxarmağa hazırlaşan general Tomson qəbul etmədi. O dövrdə çıxan erməni və rus mətbuatı türklərin məcburi surətdə Azərbaycanı tərk etməsini sevinclə xəbər verirdilər. "Borba" adlı qəzetin Nuru paşanın ingilislər tərəfindən həbs edilməsi xəbərini yayması milli qüvvələrin etirazına səbəb oldu. "İttihad" qəzeti bu məsələ ilə bağlı Q.Qarabəyovun məqaləsini vermiş və Nuru paşanın xidmətlərinin əvəzolunmaz olduğunu qeyd etmişdi.

Bakıda 1918-ci ilin martında ermənilərin vəhşiliyi Şaumyanı ölkənin içərilərinə doğru irəliləməyə ruhlandırmışdı, Şamaxıda Şaumyanın göstərişi ilə bu qətllər davam etdirilməli idi, çoxlu quldur dəstəsinə nəzarət etməsinə baxmayaraq, o, hələ kənardan da dəstək almaq barədə düşünürdü. Digər erməni cəlladbaşı Andranik Ozanyana yazdığı teleqramda bu istəyini gizlətmir, qaniçən bir cəlladı xalq qəhrəmanı adlandıraraq onu "qələbələr" munasibətilə təbrik edirdi: "...Sizin 574 nömrəli teleqramınızı aldım, eynilə həmin teleqram Moskvaya - Mərkəzi hökumətə xəbər verildi" deyərək V.İ.Leninin bu işlərdən, erməni vəhşiliklərindən xəbərdar olduğunu bildirirdi, Andranikə bu vəhşilikləri davam etdirməsinə işarə vururdu: "...Öz tərəfimdən sizin qəhrəmanlığınızı təbrik edirəm. Əgər cənab Kaçaznuni və başqaları sizin kimi olsaydılar, erməni kəndlilərinin başlarına indi yeni fəlakətlər gəlməzdi... Bütün qəhrəmanları təbrik edin. Hər bir zəhməti qəbul etməklə bərabər hürriyyət bayrağını yıxmamağa dəvət edirəm. Bakı zəhmətkeşləri Rusiya hökumətinin köməyi ilə Kürdəmir cəbhəsində türk bəylərin dəstəsi ilə mərdanə mübarizə etməkdədir".

Ermənilərin bu vəhşiliyini V.İ.Leninə müjdə kimi xəbər verən S.Şaumyan yazırdı: "1918-ci ilin yazında Bakı proletariatının yardımı və zəhmətkeş kütlələrin fəal iştirakı ilə Azərbaycanın Şərq qəzalarında Sovet qoşun dəstələri aprelin 14-də Lənkəranı azad etdi, aprelin 17-19-da Şamaxı sovet şəhərinə çevrildi..." Lənkəranı tutarkən ermənilər buradakı əhaliyə - talışlara da soyqırımı etmişlər. Şahidlərin dediklərinə görə onlar Qafqazda bir nəfər də olsun müsəlmanın qalmayacağı barədə şəhər meydanında danışır, əhalini dağlara çəkilməyə məcbur edirdilər".

Andranikə vurduğu teleqramda da Şaumyan "bütün Qafqazı" özünə tabe etməyə çalışdığını bildirirdi, onu da bu istiqamətdə iş aparmağa səsləyirdi: "Biz sizə kömək edə bilsəydik, çox şad olardıq. Ola bilər ki, siz bizimlə əlaqəyə girmək üçün bir tədbir arayasınız". Andranikdən cavab gözləmədən "xalq qəhrəmanı Andranikin" öz tərəflərinə çəkilməsinin vacib olduğu barədə "proletariatın dahi rəhbərini" - Lenini məlumatlandırırdı.

Erməni qətliamları türk-müsəlmanların yaşadığı digər bölgələrdə də davam etmişdir. Erməni-bolşevik qüvvələri Bakıdan üzü Şimala doğru ərazilərdən türk-müsəlman əhalini təmizləmək üçün Şaumyanın göstərişi ilə Xaçmaz-Quba istiqamətində quldur, cəza dəstələrinin sayını artırmışdı. Şaumyan Hamazasp adlı erməni quldurbaşını Qubaya göndərdiyini danmırdı və həmin dəstəni də təşkil etməyi heç kəslə məsləhətləşmədən erməni Korqanova həvalə edərkən məqsədi buradakı əhaliyə divan tutmaq olmuşdu..

Qubada tapılan məzarlıq da bunun əyani sübutudur. Məzarlıq təsadüfən aşkar olunmasaydı, buradakı faciədən, soyqırımından heç kəsin xəbəri olmayacaqdı. Onlar Qubada hamilə qadınların qarnını yarıb uşaqlarını xəncərləyir, körpələri ata-anasının gözü qarşısında tikə-tikə doğrayırdılar. Hamazaspın dəstəsi Qubada 162 kəndi yandırdı, bir gündə 4 mindən çox türk-müsəlmanı qətlə yetirdi. Onlar burada yaşayan qeyri-türklərə qarşı da amansız və vəhşi olmuşlar. Quba qırğınlarında 14 min ləzgi öldürülüb və bu, Fövqəladə İstintaq Komissiyasının sənədlərində öz əksini tapıb.

**(Ardı var)**

**Qafar ÇAXMAQLI,
siyasi elmlər üzrə
fəlsəfə doktoru**

***Bu günlərdə qəzetimizə "N" hərbi hissəsinin hərbi qulluqçusu baş gizir Nəsimi Məmmədov müraciət edib. Keçmiş sovet ordusunda gizir kimi xidmət edib. Azərbaycan müstəqillik qazandıqdan sonra Silahlı Qüvvələrimizdə hərbi xidmətini davam etdirib, Qarabağ müharibəsi dövründə taqım komandiri, batareyanın baş çavuşu olub və döyüş yolu keçib. Həm Silahlı Qüvvələr, həm də müharibə veteranıdır. Onun minnətdarlıq məktubunu dərc edirik.***

*Minnətdarlıq*

# "Hospitalımızda qayğı və diqqət gördüm"

**"Azərbaycan Ordusu"**

Hörmətli redaksiya!

Uzun müddət idi ki, böyrək daşı xəstəliyindən əziyyət çəkirdim. Amma doğrusu, həkimlərə müraciət etməyə, əməliyyat olunmağa ehtiyat edirdim.

Bu günlərdə vəziyyətim kəskinləşdi və məni xidmət etdiyim hərbi hissədən Silahlı Qüvvələrimizin Baş Klinik Hospitalına göndərdilər. İndiyədək bu hərbi müalicə ocağında olmamışdım. Burada hərbi qulluqçuların müayinə və müalicəsi üçün yaradılmış şərait, ən müasir tibbi avadanlıqlar məni heyran etdi. Ona görə ordumuzu daim diqqətdə saxlayan dövlətimizin başçısı İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova öz minnətdarlığımı bildirirəm.

Silahlı Qüvvələrimizin Baş Klinik Hospitalının urologiya bölməsində məni olduqca mehriban qarşıladılar və dərhal müayinə və müalicəmlə məşğul oldular. Bölmənin rəisi polkovnik Avtandil Namazov məni özü şəxsən diqqətlə müayinə elədi. Avtandil həkim bildirdi ki, əməliyyata heç bir ehtiyac yoxdur və böyrək daşını müalicə etmək mümkündür. Doğrusu, buna inamım az idi, çəkdiyim ağrılar bu şübhəyə səbəb olmuşdu.

Bilikli və təcrübəli həkim kimi hörmət qazanmış polkovnik Namazovun bilavasitə nəzarətilə bölmədə müalicəmə başladılar, eyni zamanda hospitalımızda məni digər müayinələrdən də keçirdilər. Qısa zamanda müalicəm öz nəticəsini verdi və böyrək ağrılarından azad oldum. Sözün həqiqi mənasında, hospitalımızda qayğı və diqqət gördüm.

Yüksək səviyyədə müalicə olunduğuma və hərbi qulluqçu kimi mənə göstərdikləri qayğıya görə Baş Klinik Hospitalın rəhbərliyinə, urologiya bölməsinin rəisi polkovnik Avtandil Namazova və bölmənin bütün tibb heyətinə minnətdarlığımı çatdırmağınızı xahiş edirəm.

**Baş gizir
Nəsimi MƏMMƏDOV,
"N" hərbi hissəsi**

# Xarici hərbi xronika

## Amerika yeni döyüş helikopterini nümayiş etdirəcək

Amerikanın helikopterlər istehsal edən "MD Helicopters" şirkəti LİMA-2015 sərgisində, yeni döyüş-kəşfiyyat MD530G helikopterini nümayiş etdirəcək. Gələcəkdə döyüş maşınının MD540A versiyası hazırlanacaq. Şirkətdən verilən məlumata görə, Sakit Okean - Asiya regionu ölkələrində bu seriyadan olan helikopterlər böyük uğur əldə edəcəklər. Yeni döyüş helikopteri kəşfiyyat aparmaq, sahil və sərhədyanı əraziləri mühafizə etmək, aviasiyaya dayaq durmaq və digər xüsusi əməliyyatlar aparmaq imkanlarına malik olacaq. Bu haqda şirkətin kommersiya üzrə direktoru Kreyq Kitçen məlumat verib. Yeni helikopterin sürəti saatda 205 kilometrə qədərdir.

## "Armat"ın platforması

Rusiya ilk ölkədir ki, beşinci nəsildən olan döyüş maşınlarını istehsal edəcək. Tanklar quru qoşunlarının əsas hücum qüvvəsi sayılır. Beşinci nəsildən olan döyüş maşınlarında heyət üçün müasir şərait yaradılacaq. Əsas platformalardan biri də tırtıllı "Kurqan" platforması olacaq. "Kurqan"ın bazasında PDM-lər 30 mm-lik topla, tankəleyhinə raket kompleksi və pulemyotla təchiz ediləcək. Robotlaşdırılmış döyüş moduluna malik olan hərbi texnika distansion idarə olunacaq. Tuşlayıcı ancaq hədəfi seçməli olacaq, idarəetmə sistemi isə qalan əməliyyatı özü idarə edəcək.

"Bumeranq" isə faktiki olaraq "Kurqan"ın təkərli analoqu olacaq. Onların bir-biri ilə qarşılıqlı döyüş modulu da yaradılacaq. "Bumeranq"-ın əsasında zirehli transportyorlar, təkərli PDM, təkərli artilleriya qurğuları hazırlanacaq. Başqalarından fərqli olaraq təkərli texnikalar yollarda sürətlə hərəkət edəcək və qüvvələri vaxtında lazımi yerlərə çatdıra biləcək.

S-500 hava hücumundan müdafiə sistemi yaxın kosmosda 250 kilometrə qədər olan hədəfləri ələ keçirmək imkanına malikdir. O da məlumdur ki, S-500 bir neçə hissədən - idarəetmə məntəqəsindən, radiolokasiya sistemindən və raketlə birlikdə bir neçə buraxıcı qurğudan ibarətdir. Raketlər 600 kilometrlik məsafəyə qədər uçan hədəfləri məhv etməyə qadirdir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# İdman

## "Neftçi", "Qarabağ" və "Qəbələ" qələbə qazandı



Topaz Premyer Liqasında III turun daha 3 görüşü baş tutub. Apasport.az saytının məlumatına görə, Avropa Liqasının pley-offunda mübarizə aparan "Qarabağ" liderlik uğrunda mübarizəni davam etdirib. Ağdam təmsilçisi AZAL-ın qonağı olub. Oyun çempionun 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Avroliqada mübarizəni davam etdirən digər təmsilçimiz "Qəbələ" isə Premyer Liqaya qayıdan "Kəpəz"i qəbul edib. "Qırmızı-qaralar" minimal hesablı qələbə qazanıb.

Mövsümə yaxşı başlaya bilməyən "Neftçi" isə nəhayət ilk qələbəsini qazanıb. "Flaqman" "Sumqayıt" komandasını məğlub edib -2:1.

## Yığma komandamızdan çempionluq uğurları



19 yaşadək qızlardan ibarət Azərbaycan yığması Latviyanın paytaxtı Riqa şəhərində təşkil olunmuş "Baltic Cup" turnirinin qalibi olub. Apasport.az saytının məlumatına görə, turnirin son oyununda Estoniyanın müvafiq yaş qrupundan ibarət yığması ilə qarşılaşan komandamız böyük hesablı qələbə qazanıb - 5:0.

Nigar Cəlillinin dubl etdiyi oyunda hərəyə 1 dəfə Kristina Bakarandze, Yaiza Relea və Natalia Rodelgo fərqlənib. Xatırladaq ki, yığmamız turnirdəki ilk oyununda litvalı həmyaşıdlarını 1:0, növbəti qarşılaşmada isə Latviya komandasını 4:0 hesabı ilə məğlub etmişdi.

## Şəhriyar Məmmədyarov Vyanada növbəti dəfə qələbə qazanıb



Vyanada Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov ilə Avstriya şahmatçısı Markus Raqqer arasında yoldaşlıq matçı davam edir.

AZƏRTAC xəbər verir ki, "Vyana open 2015" turnirinin proqramına daxil olan bu matçın üçüncü partiyasında ağ fiqurlarla oynayan Ş.Məmmədyarov qalib gəlib. Beləliklə, üç turdan sonra azərbaycanlı qrossmeyster 2,5: 0,5 hesabı ilə irəlidədir.

## Azərbaycan karateçiləri İranda keçirilən beynəlxalq turnirin ilk günündə uğurla çıxış ediblər




Azərbaycan karateçiləri Küveyt, Əfqanıstan, Türkiyə, Fransa, İran və İraqın əsas komandalarının da qatıldığı "Urmiya Kuboku" yarışının ilk gününü 8 medalla başa vurublar. Əvvəlcə yeniyetmə və gənclərin yarışına qatılan idmançılarımızdan Roman Heydərov və Həsən Rüstəmov (16-17 yaşlılar) kata yarışlarının finalında görüşüblər. Daha təcrübəli R.Heydərov turnirin qalibi olub.

Hümmət Baxşəliyev (-57 kq) isə yeniyetmələr arasında çempion olub.

Yeniyetmələrdən Əli Quliyev (-70 kq), 16-17 yaşlı gənclərdən Mircəlal Ələsgərov (-55 kq), Elcan Məmmədrzayev (- 61 kq), İsa Məmmədov və Murad Balakişiyev (hər ikisi -68 kq) isə bürünc mükafatlara sahib olublar.

**Hazırladı:
Əbülfət QASIMOV**

Gizir Əzimov Elşən Balaxan oğluna 2011-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Alıyev Canəli Cəsarət oğluna 2010-cu ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 635
Nüsxə 4700